# Vətən Sizi gözləyir

**«Azərbaycan Silahlı Qüvvələrində xidmət etmək hər bir Azərbaycan vətəndaşı üçün, hər bir gənc üçün böyük bir iftixar mənbəyidir, şərəfli bir vəzifədir. Orduda xidmək etmiş, öz vətəndaşlıq borcunu yerinə yetirmiş hər bir gənc bizim cəmiyyətdə, həyatımızın bütün sahələrində ən dəyərli insan hesab olunmalıdır. Azərbaycan ordusu Azərbaycan xalqının, bütün dövlət orqanlarının, vətəndaşların diqqət və qayğısı ilə əhatə olunmalıdır».**

**Heydər ƏLİYEV.**

Məlum olduğu kimi Azərbaycan Respublikası vətandaşlarının 2013-cü il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 4 iyun 2013-cü il tarixli sərəncam imzalamışdır. Həmin sərəncam hər yerdə olduğu kimi doğma Qəbələmizdə də uğurla yerinə yetirilir.





Ayın 19-u günü şəhərin mərkəzində ulu öndər Heydər Əliyevin adını daşıyan parkda həmişə olduğu kimi yenə də coşqunluq, qələbəlik duyulurdu. Dəstə-dəstə adamlar, çağırışçı gənclər dahi şəxsiyyətin abidəsi önünə gül dəstələri qoyduqdan sonra Mərkəzi meydana axışırdılar. Rayon rəhbərliyi, ictimai təşkilatların nümayəndələri, müharibə və əmək veteranları gəncləri hərbi xidmətə yola salanlar arasında idilər. Meydanda üçrəngli Azərbaycan bayrağı xəfif dalğalanırdı. Azərbaycanın Dövlət himni səsləndikdən sonra Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev gəncləri salamlayaraq, onlara tövsiyyələrini etdi:

—Əziz gənclər! Bu gün Siz üzərinizə daha şərəfli bir vəzifə götürmək ərəfəsindəsiniz. Doğma Vətənimizi, anamızı, bacılarımızı, bir sözlə müqəddəs torpağımızı qorumaq üçün əsgəri xidmətə yola düşürsünüz. Vətən sizə bel bağlayır. Bu gündən Siz Vətənə arxasınız. Bunu öz əməllərinizlə, nümunəvi xidmətinizlə sübuta yetirməlisiniz. Bu gün Azərbaycan Silahlı Qüvvələri yüksək maddi-texniki təminatla təchiz olunmuşdur. Bunu iyunun 26-da Bakının Azadlıq meydanında Silahlı Qüvvələrimizin yaradılmasının 95-ci ildönümü münasibətilə keçirilən hərbi parad bir daha göstərdi. Vahid komandanlıq altında etibarlı və yüksək peşəkarlıqla idarə olunan Silahlı Qüvvələrimiz yüksək hərbi biliklərə yiyələnmiş, mənfur düşməni və təcavüzkarlıq niyyətinə düşən hər kəsi yerində oturtmaq qabiliyyətinə malikdir. Mən sizlərdən də bu yüksək keyfiyyətləri gözləyirəm. Əminəm ki, həmişə xoş sorağınızı eşidəcəyik.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Qəbələ Rayon Şöbəsinin rəisi, mayor Hüseyn Quliyev bildirdi ki, bu günki ordumuz ötən əsrin 90-cı illərindəki pərakəndə ordu deyildir. O, vahid bir nöqtədən--Ali Baş Komandanlıqdan idarə olunur. Ordumuz yüksək hərbi texnikaya—hər cür silah-sursata, yeni döyüş təyyarələrinə, helikopterlərə malikdir. Əsgər və zabitlər üçün hər cür məişət şəraiti yaradılmış, xidmətin səviyyəsi yüksəldilmişdir. Əsgər özünü demək olar ki, öz doğma evindəki kimi hiss edir. Bütün bunlar orduya dövlət qayğısının nəticəsidir.

Rayon ağsaqqallar şurasının sədri Nazim Mustafayev özünün xidmət dövrü ilə indikini müqayisə etdi, bugünkü şəraitin nümunəviliyini və üstünlüyünü söylədi.

Biz mədəniyyət işçisi Afət Abdullayevanın müxtəlif rayon tədbirlərindəki pafoslu çıxışlarını çox eşitmişdik. Bu gün Afət xanım da öz övladını əsgəri xidmətə yola salırdı. Onun çıxışında əvvəlki pafosluq hiss olunmasa da, xüsusi nikbinlik, sabaha inam nişanələri hiss olunurdu.

Tədbirdə doğum gününün çagırış ərəfəsinə təsadüf edən bir qrup gəncə hədiyyələr təqdim olundu.

Vətənpərvərlik mahnıları və oynaq rəqslərlə çağırışçıların yolasalma mərasimi sona yetdi. Qəbələ şəhər məscidinin imamı Hacı Ceyhun xidmətə yola düşənlərə xeyir-dua dilədi. Gənclər bir-bir müqəddəs Qurani-Kərimin altından keçərək və üçrəngli bayrağımızı öpərək maşınlara doluşub xidmət edəcəkləri hərbi hissələrə yola düşdülər.

**Sağ gedib, salamat qayıdın!**

**Miri RƏHİMOV,**
**«Qəbələ»nin əməkdaşı.**

# Xalq teatrının ilk təqdimatı

Qəbələ Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən xalq teatrı uzun fasilədən sonra yenidən fəaliyyətə başlamışdır. Xalq teatrının yeni kollektivi ilk dəfə olaraq böyük həcmli tamaşa hazırlayaraq təqdim etmişdir. Qəbələ Mədəniyyət Mərkəzinin səhnəsində M. F. Axundovun "Hekayəti Müsyo Jordan və Dərviş Məstəli Şah" komediyasının təqdimatı böyük marağa səbəb olmuş və alqışlarla qarşılanmışdır.





Tamaşadan əvvəl Mədəniyyət və Turizm Nazirinin müavini Ədalət Vəliyev və rayon mədəniyyət və turizm şöbəsinin müdiri Nargilə Qafarova buraya toplaşan qonaqları və tamaşaçıları salamlayaraq, teatrın yaradıcı heyətinə uğurlar dilədilər. Səhnə əsərinə 500-dən çox rayon sakini baxmış və tamaşaçılar xalq teatrının yeni fəaliyyətini yüksək qiymətləndirmişlər.

Aktyorlardan Qiyasəddin Abbasovun, Afət Abdullayevanın, Elşən Salehovun, Müsavər Qasımovun və digərlərinin yaratdıqları səhnə obrazları tamaşaçı rəğbəti qazandı.

Bir saatdan artıq davam edən tamaşadan sonra Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, Mədəniyyət və Turizm Nazirinin müavini Ədalət Vəliyev, rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev teatrın yaradıcı heyəti ilə görüş keçirmiş, onları təbrik edərək yeni-yeni uğurlar arzulamışlar.

Nazir müavini Ədalət Vəliyev teatrın kollektivinə yeni səhnə geyimlərinin veriləcəyini və bir neçə nəfərin Bakıdakı teatrlarda təcrübə keçməsi üçün şərait yaradılacağını bildirmişdir.

Görüşdə məlumat verilmişdir ki, Qəbələdə Xalq Teatrı 1964-cü ildə yaradılmış və müxtəlif vaxtlarda xırda səhnəciklər nümayiş etdirmişdir. İlk dəfə iri həcmli səhnə əsərini təqdim edən xalq teatrının kollektivi Qəbələdə dövlət dram teatrının formalaşmasına çalışırlar. Teatr hazırda daha iki tamaşanın təqdimatına hazırlıq görür.

**Foto və mətn**
**Səhrab UMUYEVİNDİR.**